# 200

# Jurnalımızın yubiley sayı

***B**u da 200-cü sayımız! Gündəlik qəzetlər üçün bu pilləyə yüksəlmək su içmək kimi bir şeydir. Rüblük məcmuə tək nəşrə başlayan jurnal üçünsə, təbii ki, ağırdan-ağır, çətindən-çətindir.*

*Sürət 2000-ci ilədək olduğu səviyyədə davam etsəydi 200-cü saya imza atmaq üçün hələ 2021-ci ilədək gözləyəcəydik. Amma biz 21 il gözləmədik və bu yolu 7 ilə keçdik.*

Doğrusu, 2000-ci ildə baş redaktoruğa təyinat alarkən bu haqda fikirləşmirdim. Qayğımız sabiq baş redaktordan qalmış problemləri çözməklə bağlıydı. Bu haqda növbəti sayımızda ətraflı bəhs edəcəyik. Hələlik isə keçmişə xəyali bir səyahətlə kifayətlənəcəyik.

«Mədəni-maarif işi» 1967-ci ildən Azərbaycan SSR Mədəniyyət Nazirliyi və Azərbaycan SSR Nazirlər Soveti yanında Kinematoqrafiya Komitəsinin rüblük məcmuəsi kimi fəaliyyətə başlayıb.

İlk nömrə mərhum alim Həbib Qurbanovun rəhbərliyi altında mayın 18-də işıq üzü görüb. 5000 nüsxə tirajla çap edilən jurnalın qiyməti o vaxt 24 qəpik olub.

Sonrakı 2 nömrəyə də Həbib müəllim imza atıb.

4, 5 və 6-cı nömrələr isə Rauf Həsənovun redaktorluğu ilə çıxıb. Həbib müəllim jurnaln 1 il yarım, Rauf müəllim isə 1 il redaktoru olub.

Tarixi ərzində jurnala daha çox Müstəcəb Muradov rəhbərlik edib – düz 22 il yarım. Bu dövr ərzində jurnalın 7-97-ci sayları – cəmi 91 nömrəsi çıxıb. Bu, 1969-1991-ci illərə təsadüf edir.

Jurnalın 4-cü redaktoru Əlövsət Bəşirov «Mədəni-maarif işi»nə 7 il (1992-1998-ci illər) rəhbərlik edib. Onun vaxtında jurnalın cəmi 13 sayı (98-110-cu nömrələr) işıq üzü görüb.

Jurnal yarandığı gündən redaksiyada çalışan Tariyel İbrahimovun redaktorluğu cəmi bir il sürüb. 1999-cu ildə o, 6 nömrənin çapına (111-116-cı saylar) imza atıb.

«Mədəni-maarif işi»nin fəaliyyətində dönüş 2000-ci ildən başlayıb. İlk dəfə 117-ci sayın çapına imza atan Yaşar Vəliyev bu gün də fəaliyyətini uğurla davam etdirir. İndiyədək onun redaktorluğu ilə jurnalın 84 nömrəsi çıxıb.

Müqayisə üçün deyək ki, bu qədər müddətə Ə.Bəşirovun vaxtında jurnal cəmi 13 dəfə işıq üzü görmüşdü. Başqa bir müqayisə! Əvvəllər 84 nömrənin çapı üçün 21-22 il çalışmaq lazım gəlmişdi…

***Bu da 200-cü sayımız!***

***Bu münasibətlə özümüzü, bütün yazarlarımızı, oxucularımızı, rəhbərliyimizi və bizi sevənlərin hamısını təbrik edirik!***

**Y.ARAPLI**